## Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının yaradılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 21 aprel tarixli 697 saylı Sərəncamına əsasən fəaliyyət göstərən Dövlət Dəniz Administrasiyasının əsasında Azərbaycan Respublikasının ~~Nazirlər Kabineti yanında~~ Dövlət Dəniz Administrasiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasında dəniz gəmiçiliyi sahəsində aparılan siyasətin, habelə BMT-nin Beynəlxalq Dəniz Təşkilatı və digər beynəlxalq dəniz təşkilatları ilə əməkdaşlığın, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq dəniz konvensiyalarının icrasına nəzarətin həyata keçirilməsi səlahiyyətlərinin Azərbaycan Respublikasının ~~Nazirlər Kabineti yanında~~ Dövlət Dəniz Administrasiyasına tapşırılması barədə BMT-nin Beynəlxalq Dəniz Təşkilatına müvafiq bildiriş göndərsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. Azərbaycan Respublikasının ~~Nazirlər Kabineti yanında~~ Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamənin layihəsini və həmin Administrasiyanın işçilərinin ümumi say tərkibi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; [1]

3.2. qüvvədə olan qanunvericilik aktlarının bu Sərəncama uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Sərəncam dərc olunduğu gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 fevral 2006-cı il
№ 1271